# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyinin**
**1463 saylı 31 avqust 2012-ci il**
**tarixli əmri ilə təsdiq edilmişdir.**

# ALİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L P R O Q R A M I

**İxtisasın (proqramın) şifri və adı: 060206 – Tarix**

**BAKI – 2012**

## 1. Ümumi müddəalar

**1.1.** Magistratura səviyyəsinin **060206 – Tarix** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.2.** Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060206 – Tarix** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

**1.3.** Strukturda istifadə olunan işarələr:
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

## 2. 060206- Tarix ixtisasının xarakteristikası

**2.1.** Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060206 – Tarix**<br><br>**İxtisaslaşmalar:**<br>- *Azərbaycanın qədim və orta əsrlər tarixi*<br>- *Asiya və Afrika ölkələrinin tarixi*<br>- *Qədim dünya tarixi*<br>- *Arxeologiya və etnoqrafiya*<br>- *Etnologiya*<br>- *Avropa və Amerikanın yeni və ən yeni tarixi*<br>- *Türk dünyası tarixi*<br>- *Yaxın və Orta Şərqin tarixi*<br>- *Orta əsrlər tarixi*<br>- *Azərbaycanın yeni və ən yeni tarixi*<br>- *Azərbaycan tarixinin mənbəşünaslığı və tarixşünaslığı*<br>- *Slavyan ölkələri tarixi* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

## 3. Məzunun ixtisas xarakteristikası və kompetensiyası

### 3.1. Magistrin ixtisas xarakteristikası

Magistr nəzəri prinsip və tədqiqat metodları haqqında ümumi təsvirə və geniş biliyə malik olmalı, peşə hazırlığı tələb edən elmi-tədqiqat işi aparmağa və pedaqoji fəaliyyətə hazır olmalı, peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyi bacarmalıdır.

### 3.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər

**3.2.1.** Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- kollektiv işləmək qabiliyyəti **(ÜK-1);**
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq qabiliyyəti **(ÜK-2);**
- fəal sosial mobillik **(ÜK-3);**
- beynəlxalq arenada işləmək qabiliyyəti **(ÜK-4);**
- hüquqi biliklər və etik normalara malik olmaq **(ÜK-5);**
- yeni ideyalar irəli sürmək qabiliyyəti **(ÜK-6);**
- müstəqil işləmək **(ÜK-7);**
- elmi-tədqiqat işlərinin təşkilində, elmi kollektivin idarə olunmasında bacarıq vərdişlərinə malik olmaq **(ÜK-8);**
- təşəbbüskarlıq və liderlik **(ÜK-9);**
- işi təşkil etmək və planlaşdırmaq qabiliyyətinə malik olmaq **(ÜK-10).**

**3.2.2.** Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

***Elmi-tədqiqat sahəsi üzrə:***

- fundamental və kompyuter fənləri sahəsində dərin biliklərə əsaslanan tarixi tədqiqat üsullarından istifadə etmək qabiliyyəti **(PK-1);**
- elmi-tədqiqat və elmi axtarışlar işinin aparılması **(PK-2);**
- tarix elminin inkişafının əsas istiqamətlərinin aspektləri üzrə müstəqil təhlil aparmaq**(PK-3);**
- öz elmi araşdırmalarının nəticələrini təqdim etmək bacarığı **(PK-4);**
- elmi-tədqiqat işlərinin ümumi mənzərəsini müstəqil qurmaq **(PK-5).**

***Pedaqoji sahə üzrə:***

- ali təhsilin bakalavriat səviyyəsində Tarix ixtisası fənlərini tədris etmək **(PK-6);**
- elektron kitabxanalardan, tarixə aid jurnallardan ixtisasın aktual elmi-texniki məlumatlarını əldə etmək **(PK-7);**
- tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilməyə **(PK-8);**

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***

- qeyri-ixtisas bilikləri qısaca və dürüst ifadə etmək **(PK-9);**
- fənn qrupları üzrə ümumi formaları və qanunauyğunluğu müəyyənləşdirmək **(PK-10);**
- tarix elminin sahəsinin problemlərinin təhlilində müasir metodlardan istifadə etməklə təhlil etmək **(PK-11);**
- kollektivlərin elmi-tədqiqat işlərinə rəhbərlik etmək **(PK-12);**
- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri həll etməyə **(PK-13);**
- davamlı təlim və peşəkar inkişafla bağlı şəxsi və digərlərinin ehtiyaclarını qiymətləndirməyə, həmçinin müstəqil təhsil üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilməyə **(PK-14);**
- müvafiq fəaliyyət və metodları təklif etmək və planlaşdırmağa, onların qısa və uzunmüddətli nəticələrini təhlil etməyə **(PK-15);**
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri yaradıcı şəkildə müəyyənləşdirmək və ortaya qoya bilməyə, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilməyə **(PK-16);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilməyə, həmçinin potensial nəticələri müəyyənləşdirmək və/və ya qiymətləndirə bilməyə **(PK-17);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı şəxsi davranışlarını tənqidi şəkildə qiymətləndirməyə **(PK-18);**
- fəaliyyət və təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək və əsaslandırmağa, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak edə bilməyə **(PK-19);**
- innovativ yanaşma tələb edən mürəkkəb və gözlənilməz şəraitlərdə müstəqil şəkildə fəaliyyət göstərməyə **(PK-20);**
- təşkilat və ya qrupların strateji fəaliyyəti ilə bağlı məsuliyyət daşımağa **(PK-21);**
- mürəkkəb şəraitlərdə etik qaydalara uyğun şəkildə davrana bilməyə, şəxsi davranışların etik aspektləri, imkanları, məhdudiyyət və sosial rolunu anlamağa, fəaliyyət və təhsil sahəsi ilə bağlı məsələlərdə əsaslandırılmış qiymətləndirmə aparmağa **(PK-22).**

## 4. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə və təhsilin məzmununa qoyulan minimum tələblər

### 4.1. Peşə fəaliyyətinin xarakteristikası.

**4.1.1. 060206** – **Tarix** ixtisası üzrə magistrlərin peşə fəaliyyətinin əsas istiqamətləri:

- elmi-tədqiqat sahəsi üzrə;

- pedaqoji;
- təşkilati-inzibatçılıq.

**4.1.2. Hazırlıq səviyyəsinə qoyulan tələblər:**

***Elmi-tədqiqat sahəsi üzrə:***

- tarix sahəsinin real proseslərinin və obyektlərinin öyrənilməsində elmi, təşkilati və tətbiqi məsələlərin həllində qabaqcıl texnologiyaları tətbiq etmək;
- elm və texnikanın nailiyyətlərindən, Azərbaycanın və xarici ölkələrin qabaqcıl təcrübəsindən istifadə etməklə tarix sahəsində aparılan elmi-tədqiqat işlərini təhlil etmək və nəticələri ümumiləşdirmək;
- konfranslar, seminarlar, simpoziumlar hazırlamaq və keçirmək;
- elmi nəşrlər hazırlamaq və redaktə etmək.

***Pedaqoji sahə üzrə:***
- mühazirə oxumaq;
- məşğələ və seminar dərslərini aparmaq.

***Təşkilati-inzibatçılıq sahəsi üzrə:***
- elmi-tədqiqat qruplarının işini təşkil etməyi;
- elmi araşdırmaların nəticələrini qiymətləndirməyi.

**4.2. Təhsilin məzmununa qoyulan minimum tələblər.**

□ İxtisas üzrə fənn bölümləri, fənlərin kreditləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları.

| Fənn bölümün ün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq vərdişlər baxımından) | Fənn bölümləri üzrə kreditlərin sayı | Fənnin kodu və adı | Fənn üzrə kredit lərin sayı | Qazanılması nəzərdə tutulan kompetensiy aların kodları |
|---|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | | |
| **MHF-B00** | **Humanitar fənlər bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində magistr:<br>**bilməlidir:**<br>- xarici dildə neytral səs informasiyasının və ritminin özünəməxsusluğunun tarix sahəsi üçün səciyyəvi olan tələffüz üslubunun əsas xüsusiyyətlərini, | **14** | **MHF – B01** *Xarici dil*<br>**MHF – B02** *Ali məktəb pedaqogikası*<br>**MHF – B03** *Psixologiya* | **6**<br>**4**<br>**2** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5 ÜK-6 ÜK-7 ÜK-8 ÜK-9 ÜK-10** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | ümumi və terminoloji səciyyəli 4000 tədris leksik vahidləri həcmində leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyəti, adət ənənələrini, tarixini və coğrafiyasını, nitq etiketi qaydalarını;<br>- Azərbaycanda ali təhsil sistemini, ali məktəbin tələbə və müəllimlərinin vəzifələrini, ali təhsil müəssisəsində təlim prosesi və təhsilin məzmununu, didaktika və onun müasir problemlərini, mühazirə və ona verilən müasir tələbləri, tərbiyə və özünütərbiyə rəhbərlik və idarəetmə məsələlərini, elmi tədqiqat (müəllim və tələbə) işinin metodikasını;<br>- psixologiyanın obyekti, predmeti və metodlarını, psixologiyanın əsas istiqamətlərini, psixikanın quruluşunu, şüurluluq və qeyri-şüurluluğun qarşılıqlı münasibətini, tələbə psixologiyasını və s.<br><br>**bacarmalıdır:**<br>- tarix ixtisasına dair mətnləri oxumağı;<br>- ixtisasa dair internetdən götürülmüş mətnləri tərcümə etməyi;<br>- annotasiya, referat, tezis, tərcümeyi-hal və s. yazmağı;<br>- mühazirə mətni hazırlamağı, mühazirə oxumağı, seminar məşğələlərini planlaşdırmağı və aparmağı;<br>- hər bir tələbəyə psixoloji baxımdan fərdi qaydada yanaşmağı, tələbələri eksperimentə cəlb etməyi və s.<br><br>**yiyələnməlidir:**<br>- xarici dildə oxumaq və yazmaq vərdişlərinə;<br>- ali təhsil müəssisəsində tədris və tədqiqat işlərini aparmağa;<br>- tələbələrə pedaqoji və psixoloji yanaşma keyfiyyətlərinə və s. | | **MHF – B04**<br>*Seçmə fənn** | **2** | **ÜK-15** |
| **MİF-B00** | **İxtisas (ixtisaslaşma) fənlər bölümü**<br>Bu fənnin öyrənilməsi nəticəsində təhsil alan:<br>**bilməlidir:**<br>–Azərbaycan tarixşünaslığının və mənbəşünaslığının başlıca | **76** | **MİF-B01**<br>*Tarix elminin müasir problemləri*<br><br>**MİF-B02** | **4**<br><br><br><br>**2** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | problemlərinin əsas xüsusiyyətlərini;<br>– 1918-1920-ci illər türk-müsəlman soyqırımının xarici, mühacir, sovet və vətən tarixşünaslığı baxımından dəyərləndirilməsini;<br>– 1918-1920-ci illər türk-müsəlman soyqırımını özündə ehtiva edən Fövqəladə Təhqiqat Komissiyasının sənədlərinin dəyərlənidirilməsini;<br>– Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqının tarixində oynadığı rolu sovet, vətən, xarici və mühacir tarixşünaslığı baxımından dəyərləndirilməsini;<br>– Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə mövcud dövlət təsisatlarının yaradılması uğrunda mübarizənin nəticələrini;<br>–Azərbaycan tarixinin tədrisinin metodologiyasının və metodlarının mənbələr əsasında araşdırılmasını;<br>– Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra tarix elminin problemlərinin yeni istiqamətdə dəyərləndirilməsini;<br>– Sovet dönəmində təhrif olunmuş vətən tarixinin tədqiqinin yeni istiqamətdə öyrənilməsini;<br>– Azərbaycanda tarixi fikrin tarixi biliyə, tarixi biliyin tarix elminə çevrilməsi uğrundakı mübarizənin forma və metodlarını;<br>- Tarix elminin tədrisində metadoloji vasitələrin tətbiq edilməsinin yollarını;<br>- Dünya və Azərbaycan tarixinin əsas problemlərini, tarixi prosesin inkişaf xüsusiyyətlərini;<br>- Azərbaycanın arxeologiyası, etnoqrafiyası, nümizmatikası və epiqrafik abidələrini;<br>- Etnologiyanın müasir problemlərini və etnik prosesləri;<br>- Qədim Şərq və antik Avropanın tarixinin başlıca məsələlərini, Altay türklərinin qədim tarixini və mədəniyyətini;<br>- Qədim dövrdə Azərbaycanın dövlətlərarası münasibətlərdəki yerini;<br>- Orta əsrlərdə Azərbaycan dövlətlərinin Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinin xarakterini;<br>- Avropa səyyahlarının əsərlərində | | *Tarixin tədrisi metodologiyası və metodikası*<br><br>**MİF-B03**<br>*Ali məktəbin müəyyən etdiyi fənn*<br><br>**MİF-B04**<br>*İxtisaslaşmaya ayrılan fənlər***<br><br>**MİF-B05**<br>*Seçmə fənn** | <br><br><br><br>**4**<br><br><br><br><br>**42**<br><br><br><br>**24** | **PK-7**<br>**PK-8**<br>**PK-9**<br>**PK-10**<br>**PK-11**<br>**PK-12**<br>**PK-13**<br>**PK-14**<br>**PK-15**<br>**PK-16**<br>**PK-17**<br>**PK-18**<br>**PK-19**<br>**PK-20**<br>**PK-21**<br>**PK-22** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Azərbaycan tarixi və mədəniyyəti haqqında materialları;<br>- Avropa dövlətlərinin Şərqdə müstəmləkəçi siyasətinin başlıca istiqamətlərini;<br>- V-XIX əsrin birinci yarısında beynəlxalq münasibətlər sistemində Azərbaycanın yerini;<br>- Azərbaycanın qədim və orta əsrlər tarixinin aktual problemlərini;<br>- Azərbaycan xalqının etnogenezisi və bir türk etnosu kimi formalaşdığı tarixi şəraiti;<br>- farsdilli qaynaqların tariximizin öyrənilməsində yeri və rolunu;<br>- Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarəetmə sistemini;<br>- Azərbaycan xanlıqlarının aqrar quruluşunu və ali zümrənin tərkibində rühanilərin yeri və rolunu;<br>- XIX-XX əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixinin başlıca problemlərini;<br>- XX əsrdə Azərbaycanın sosial-iqtisadi inkişaf tarixini, rus müstəmləkəçiliyi və sovet rejiminə qarşı azadlıq mübarizəsinin mərhələ və xüsusiyyətlərini;<br>- Avropa və Amerikanın yeni və ən yeni tarixinin aktual problemlərini;<br>- Avropa İttifaqının beynəlxalq münasibətlərdə yeri və rolunu və Balkan problemlərini, ABŞ-ın Yaxın Şərq siyasətini;<br>- II Dünya müharibəsi dövründə beynəlxalq münasibətləri və böyük dövlətlərin Cənubi Azərbaycan uğrunda mübarizəsini;<br>- türk xalqlarının qədim və orta əsrlər dövrünün tarixini;<br>- türk xalqlarının yeni və müasir tarixinin başlıca problemlərini;<br>- Qafqaz xalqlarının qədim, orta əsrlər, yeni və müasir tarixinin başlıca problemlərini;<br>- Yaxın və Orta Şərq ölkələrinin yeni və müasir tarixinin aktual məsələlərini;<br>- ərəb ölkələri, Türkiyə Cümhuriyyətini, İran İslam Respublikasının müasir tarixini;<br>- yeni və müasir dövrdə Asiya və | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Afrika ölkələrinin sosial-iqtisadi və siyasi inkişafının xüsusiyyətlərini;<br>- slavyan ölkələrinin orta əsrlər, yeni və müasir tarixinin əsas problemlərini;<br>- Rusiya və SSRİ tarixinin başlıca problemlərini.<br><br>**bacarmalıdır:**<br>- Azərbaycanın arxeologiyası, etnoqrafiyası, nümizmatikası və epiqrafik abidələrini təsnif etməyi;<br>- Etnologiyanın müasir problemlərini və etnik prosesləri təhlil etməyi;<br>- Qədim Şərq və antik Avropanın tarixinin başlıca məsələlərinin, Altay türklərinin qədim tarixinin və mədəniyyətinin xüsusiyyətlərini müəyyən etməyi;<br>- Qədim dövrdə Azərbaycanın dövlətlərarası münasibətlərdəki yerini müəyyənləşdirməyi;<br>- Orta əsrlərdə Azərbaycan dövlətlərinin Avropa ölkələri ilə qarşılıqlı əlaqələrinin xarakterini, Avropa səyyahlarının əsərlərində Azərbaycan tarixi və mədəniyyəti haqqında materialları təhlil etməyi;<br>- Avropa dövlətlərinin Şərqdə müstəmləkəçi siyasətinin başlıca istiqamətlərini müəyyənləşdirməyi;<br>- V-XIX əsrin birinci yarısında beynəlxalq münasibətlər sistemində Azərbaycanın yerini təyin etməyi;<br>- Azərbaycan xalqının etnogenezisi və bir türk etnosu kimi formalaşdığı tarixi şəraiti qiymətləndirməyi;<br>- Tariximizin öyrənilməsi sahəsində farsdilli qaynaqlardan istifadə etməyi;<br>- Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarəetmə sistemini araşdırmağı;<br>- Azərbaycan xanlıqlarının aqrar quruluşunu və ali zümrənin tərkibində ruhanilərin yeri və rolu məsələsini təhlil etməyi;<br>- XX əsrdə Azərbaycanın sosial-iqtisadi inkişaf tarixini, rus müstəmləkəçiliyi və sovet rejiminə qarşı azadlıq mübarizəsinin mərhələ və xüsusiyyətlərini təhlil etməyi;<br>- Avropa İttifaqının beynəlxalq münasibətlərdə yeri və rolunu və | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Balkan problemlərini, ABŞ-ın Yaxın Şərq siyasətini təhlil etməyi;<br>- II Dünya müharibəsi dövründə beynəlxalq münasibətləri və böyük dövlətlərin Cənubi Azərbaycan uğrunda mübarizəsini araşdırmağı;<br>- Türk xalqlarının qədim və orta əsrlər, yeni və müasir tarixinin başlıca problemlərini tədqiq etməyi;<br>- Qafqaz xalqlarının qədim, orta əsrlər, yeni və müasir tarixinin başlıca problemlərini təhlil etməyi;<br>- Yaxın və Orta Şərq ölkələrinin yeni və müasir dövrdə tarixinin aktual məsələlərini araşdırmağı;<br>- Ərəb ölkələri, Türkiyə Cümhuriyyətini, İran İslam Respublikasının müasir tarixini tədqiq etməyi;<br>- Yeni və müasir dövrdə Asiya və Afrika ölkələrinin sosial-iqtisadi və siyasi inkişafının xüsusiyyətlərini müəyyənləşdirməyi;<br>- Slavyan ölkələrinin orta əsrlər, yeni və müasir dövrünün tarixini tədqiq etməyi;<br>- Rusiya və SSRİ tarixinin başlıca problemlərini təhlil etməyi.<br><br>**yiyələnməlidir:**<br>- Dünya ölkələri və Azərbaycan tarixinin başlıca problemləri üzrə elmi-tədqiqat işləri aparmaq və əldə edilmiş bilikləri gələcəkdə tədris prosesinə tətbiq etmək vərdişlərinə. | | | | |
| **MET-B00** | **Elmi tədqiqat işləri**<br>Magistr elmi-tədqiqat işini yerinə yetirmək nəticəsində aşağıdakıları bilməli və bacarmalıdır:<br>- elmi-tədqiqat işlərini planlaşdırmağı;<br>- tədqiqat mövzusu seçməyi;<br>- ədəbiyyat siyahısının tərtibini;<br>-elmi-tədqiqat işi aparmağı;<br>-elmi-tədqiqat işinin nəticələrini təhlil etməyi, onu digər müəlliflərin nəticələri ilə müqayisə etməyi;<br>- alınmış nəticələrin praktiki əhəmiyyətini və onun tətbiqi imkanlarını müəyyənləşdirməyi;<br>-elmi-tədqiqat işinin gələcəkdə davam etdirilməsi imkanlarını müəyyənləşdirməyi; | **30** | Elmi tədqiqat təcrübəsi<br><br>Elmi pedaqoji təcrübə<br><br>Magistr dissertasiyasının hazırlanması və müdafiəsi | **6**<br><br>**6**<br><br>**18** | **ÜK-7**<br>**PK-5** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | - yerinə yetirilmiş tədqiqat işinin müdafiəsini;<br>-elmi-tədqiqat işinin nəticələrinin çap üçün hazırlanmasını;<br>-elmi-tədqiqat və elmi pedaqoji təcrübələrdə iştirak etməyi, onların nəticələrini ümumiləşdirməyi və magistrlik dissertasiyasında istifadə etməyi və s. | | | | |
| **Kreditlərin ümumi sayı** | | **120** | | **120** | |

**Bütün bölümlərdə seçmə fənlər müvafiq səriştələrə (kompetensiyalara) uyğun ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*
***İxtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər ali təhsil müəssisələri tərəfindən müəyyənləşdirilir.*

**4.3.** İxtisas üzrə magistr təhsil proqramının yerinə yetirilməsi müddəti:
ümumi həftələrin sayı – 94
o cümlədən:
- nəzəri təlim – 45 həftə
- təcrübələr (elmi-tədqiqat və elmi-pedaqoji) – 8 həftə
- imtahan sessiyaları – 15 həftə
- magistrlik dissertasiyasının hazırlanması və müdafiəsi – 12 həftə
- tətillər – 14 həftə

## 5. Maddi-texniki, tədris bazası və kadr potensialı

**5.1.** Ali təhsil müəssisəsinin **060206 – Tarix** ixtisasının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompyuter sinifləri, emalatxanalar və s. ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanların ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, məlumat bazalarına, elektron kitabxanalara, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

**5.2.** Fənlərin tədrisi, bir qayda olaraq, ali təhsil müəssisələrinin elmi dərəcəsi və ya elmi adı olan professor-müəllim heyəti tərəfindən aparılır. Bu fəaliyyətə həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər cəlb oluna bilər.

**5.3.** Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, həmin təhsil müəssisəsində çalışan professor-müəllim heyətinin elmi adı və ya elmi dərəcəsi olan nümayəndələri və ya həmin şərtləri ödəyən digər müəssisə və təşkilatlarda çalışan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Tədris prosesinin forma və metodları

**6.1.** Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formalarda həyata keçirilir.

**6.2.** Magistr hazırlığı üzrə tədris prosesində şifahi şərh, müsahibə, interaktiv təlim, müstəqil iş, diskussiya, dəyirmi masa, illüstrasiya, tədqiqatçılıq, laboratoriya və praktik iş və digər metodlardan istifadə edilə bilər.

**6.3.** **060206 – Tarix** ixtisası üzrə magistr hazırlığında elmi-tədqiqat və elmi-pedaqoji təcrübələr nəzərdə tutulur (təcrübələrin məqsəd və vəzifələri ixtisasdan asılı olaraq müəyyənləşdirilir). Təcrübələr növündən asılı olaraq müvafiq təşkilatlarda, yaxud ali məktəblərin kafedra və laboratoriyalarında keçirilə bilər.

## 7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə

**7.1.** Yekun dövlət attestasiyası magistrlik dissertasiyasının müdafiəsindən ibarətdir. Dissertasiyanın məzmununa, həcminə, strukturuna qoyulan tələblər və onun müdafiəsi qaydaları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir.

**7.2.** Təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında həyata keçirilir.

**7.3.** Yekun Dövlət Attestasiyası nəticəsində məzunlara magistr ali elmi-ixtisas dərəcəsi və dövlət nümunəli diplom verilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru

________________A.Mehrabov

«____» ___________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali və orta ixtisas təhsili şöbəsinin rəisi

______________İ.Mustafayev

«____»__________2012-ci il

Humanitar və sosial ixtisaslar qrupu üzrə Dövlət Təhsil Standartları hazırlayan işçi qrupun sədri

__________________S.Hacıyev

«___» _____________ 2012-ci il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki-Şurasının «Tarix» bölməsinin sədri

__________________ Y.Mahmudov

«___» _____________ 2012-ci il